**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət
Komitəsi Əmr 007
«08» yanvar 2001-ci il
Sədr _______________ H. Babayev

**Azərbaycan Respublikasında fyuçerslərin tədavülü**
**Q a y d a l a r ı**

I. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında" Əsasnaməyə müvafiq olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar fyuçers kontraktlarının tədavülünü, o cümlədən onların bağlanılmasını, icrasını, onlarla əməliyyat aparan qiymətli kağızlar bazarının iştirakçılarının (bundan sonra – ticarət iştirakçıları) və klirinq təşkilatlarının öhdəliklərinin müəyyənləşdirilməsini tənzimləyir.

II. Əsas anlayışlar

2.1. Fyuçers - müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə alınması və ya satılması haqqında standartlaşdırılmış birja müqaviləsi;

2.2. Spesifikasiya – birja tərəfindən hazırlanmış fyuçersin məzmununun əsas parametrlərini əks etdirən sənəd;

2.3. Qısa mövqenin açılması – ticarət iştirakçısı tərəfindən fyuçersin satılması;

2.4. Uzun mövqenin açılması – ticarət iştirakçısı tərəfindən fyuçersin alınması;

2.5. Mövqenin bağlanması - ticarət iştirakçısı tərəfindən alınmış fyuçerslərin satılması və ya satılmış fyuçersin alınması;

2.6. Variasia marjası –fyuçers kontraktını almış və ya satmış ticarət iştirakçısının fyuçersin qiymətinin dəyişməsi ilə əlaqədar əmələ gəlmiş öhdəliyi;

2.7. Mərkəzləşdirilmiş klirinq - klirinq təşkilatı tərəfindən ticarət iştirakçılarının

bağladıqları fyuçers kontraktları üzrə hüquq və öhdəlikləri əldə etməklə, əvəzləşdirilmənin aparılması.

## III. Fyuçerslər üzrə baza aktivləri

3.1. Azərbaycan Respublikasınında xarici valyutanın, qiymətli kağızların və birja indekslərinin alınıb satılmasına dair fyuçers kontraktlarının bağlanılmasına heç bir məhdudiyyət qoyulmur.

3.2. Digər növ baza aktivlər üzrə fyuçers kontraktlarının bağlanılması Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar Dövlət Komitəsinin (bundan sonra – QKDK) icazəsi ilə həyata keçirilir. Bunun üçün QKDK birjadan və ticarət iştirakçısından müfəssəl məlumatın alınması hüququna malikdir.

## IV. Fyuçerslərin tədavülü

4.1. Fyuçers kontraktlarının bağlanılması yalnız QKDK tərəfindən verilmiş müvafiq lisenziyaya əsasında fəaliyyət göstərən klirinq təşkilatının iştirakı ilə fond birjasında həyata keçirilməlidir.

4.2. Klirinq təşkilatı fyuçers kontraktından irəli qələn öhdəliklərin icra olunmasında təminatçı kimi çıxış edir.

4.3. Birja alqı və ya satqı sifarişlərinin verilməsində, baza aktivinin cari qiyməti və ticarətin gedişatı haqqında məlumatın əldə edilməsində fyuçerslərlə əməliyyat aparan bütün ticarət iştirakçıları üçün eyni şərait yaratmalıdır.

4.4. Klirinq təşkilatı ticarət iştirakçıları üçün açıq mövqelərin limitini müəyyən edə bilər.

4.5. Ticarət iştirakçıları mövqenin açılmasından əvvəl klirinq təşkilatının xüsusi hesabına klirinq təşkilatı tərəfindən müəyyən edilmiş məbləği (bağlanılacaq fyuçersin məbləğindən müəyyən faiz) ilkin depozitə yerləşdirməlidir.

4.6. İlkin depozit manat, sərbəst dönərli xarici valyuta ilə, həmçinin dövlət qiymətli kağızların girov qoyulması yolu ilə formalaşdırıla bilər. İlkin depozitin yerləşdirilməsindən əvvəl ticarət iştirakçıları tərəfindən mövqelərin açılmasına yol verilmir.

4.7. Birja ticarətə təklif olunan fyuçerslərin spesifikasiyalarını hərraclar başlandıqdan əvvəl hazırlayır.

4.8. Fyuçers kontraktlarının spesifikasiyalarında aşağıdakılar öz əksini tapmalıdır:

4.8.1. Baza aktivi barədə müfəssəl məlumat;

4.8.2. Fyuçers üzrə öhdəliklərin icra olunmasının son müddəti;

4.8.3. Baza aktivinin vahidi və lotların ümumi sayı;

4.8.4. Bir ticarət günü ərzində fyuçers kontraktının qiymətinin dəyişməsinin həddi;

4.8.5. Fyuçers kontraktının qiymətinin dəyişməsinin addımı;

4.8.6. Fyuçersin, açılmış mövqenin məcburi olaraq bağlanılması üçün olan qiymətinin müəyyənləşdirilməsi qaydası;

4.8.7. Birjaya ödənilən haqqın (komissiyanın) məbləği;

4.8.8. Birja digər məlumatları spesifikasiyada əks etdirə bilər.

4.9. Klirinq təşkilatı fyuçerslərin qiymətlərinin dəyişməsinin gündəlik limitlərini məyyən etməlidir. Fyuçerslərin qiymətlərinin dəyişməsinin gündəlik limiti bu Qaydaların 4.5 bəndində göstərilmiş ilkin depozitin məbləğinin 50%-dən artıq ola bilməz.

4.10. Fyuçers kontraktlarının bağlanması zamanı pozuntulara yol verildikdə QKDK ticarəti dayandırıb fyuçerslərlə əqdlərin bağlanılmasını müəyyən müddətə qadağan edə bilər.

V. Fyuçerslər üzrə klirinq

5.1. Klirinq təşkilatı bağlanmış fyuçers kontraktları üzrə hər ticarət gününün sonunda birja reyestrindən çıxarışlar əsasında mərkəzləşdirilmiş klirinqi həyata keçirir.

5.2. Ticarət iştirakçılarının sifarişlərinin icra olunmasının növbəliyi klirinq təşkilatı tərəfindən müəyyən olunur.

5.3. Klirinq təşkilatı fyuçers kontraktları ilə əməliyyat aparan hər bir ticarət iştirakçısı üçün fyuçers hesabını aparmalıdır.

5.4. Ticarət sessiyasının sonunda fyuçersin qiymətinin dəyişməsi ilə əlaqədar fyuçers üzrə itkilərin ödənilməsi üçün, klirinq təşkilatı əlavə olunmalı variasiya marjasının məbləğini aşağıdakı düsturla hesablayıb, həmin gün ticarət iştirakçısının nəzərinə çatdırmalıdır:

$$VM = (F2 - F1) \times L$$

burada:

VM – variasiya marjasının məbləği;

F1 –fyuçers kontraktının bağlandığı günə olan qiyməti;

F2 – fyuçersin son ticarət gününə olan qiyməti;

L – lotların ümumi sayı;

5.5. Variasiya marjası növbəti ticarət sessiyası başlamazdan əvvəl ticarət təşkilatçısı tərəfindən ödənilməlidir. Variasiya marjasını ödəməmiş ticarət iştirakçısı tərəfindən açılmış mövqelər məcburi olaraq bağlanılır (uzun mövqe açmış ticarət iştirakçısı üçün alınmış fyuçerslərin məcburi satılması ilə, qısa mövqe açmış ticarət iştirakçısı üçün satılmış fyuçerslərin məcburi alınması ilə).

## VI. Məsuliyyət

6.1. Bu Qaydaları pozan şəxslər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar.

## VII. Qüvvəyə minməsi

7.1. Bu Qaydalar təsdiq edildiyi gündən qüvvəyə minir.